
Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 83 (21.744)

3 may 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Cibuti Respublikası Milli Assambleyasının sədri Mohamed Əli Humədin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İkitərəfli əlaqələrimizin çox möhkəm olduğunu və son illər ərzində daha da inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev deyib ki, Azərbaycan Cibuti ilə bu əlaqələrin müxtəlif sahələrdə genişləndirilməsində maraqlıdır. Cibuti parlamentinin Xocalı faciəsinin soyqırımı kimi tanınması ilə bağlı qəbul etdiyi qətnaməyə görə minnətdarlığını bildirən dövlətimizin başçısı artıq dünyanın 10-dan çox ölkəsinin parlamentləri tərəfindən Xocalı faciəsinin soyqırımı kimi tanınması ilə bağlı qərar qəbul olunduğunu vurğulayıb.

Ölkələrimizin bir-birinə ümumi dini və mədəni tellərlə bağlı olduğunu deyən Mohamed Əli Huməd bu əlaqələrin daha da möhkəmləndirilməsinin zəruriliyini qeyd edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva mayın 2-də Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Morinari Vatanabeni və Beynəlxalq Gimnastika Federasiyasının baş katibi Andre Qaysbuxleri qəbul ediblər.

## S.A.Sadıxovun Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Samiq Asəf oğlu Sadıxov Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta Dövlət Agentliyinin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 2 may 2017-ci il*

## Muxtar respublikada 3,8 hektar sahədə yeni günəş panelləri quraşdırılacaq

***"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən, alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.***



Əlverişli coğrafi mövqe və iqlim şəraiti muxtar respublikada ekoloji cəhətdən təmiz, tükənməyən alternativ enerji mənbələrindən istifadəyə geniş imkan yaratdığından son illər bu diyarda iqtisadi cəhətdən daha səmərəli olan elektrik stansiyaları tikilir. Bu sahədə görülən işlərin davamı kimi, 2015-ci il dekabrın 1-də Babək rayonunun Xal-xal kəndi yaxınlığında 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilib. Burada işlər Belçika Krallığının "Soltech" şirkəti tərəfindən görülüb. Stansiyada 78 min 684 ədəd ən müasir "şüşə-şüşə" tipli günəş panelləri, onlar üçün dayaqlar və 11 elektrik yarımstansiyası quraşdırılıb. Cari ildə isə stansiyada əlavə 8 minə yaxın günəş paneli quraşdırılacaq.

Günəş Elektrik Stansiyasında işlərə bu ilin aprel ayından başlanılıb. Burada yeni günəş panelləri 3,8 hektar ərazidə quraşdırılacaq ki, bunun da 2 hektarı stansiyanın əvvəlki ərazisindəki boş sahələr, 1,8 hektarı isə əkin üçün yararsız sahələrdir. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti və İsveçrənin "Ped" şirkəti arasında bağlanan müqaviləyə əsaslanaraq aprel ayının 20-dən etibarən stansiyanın ərazisində artırma işlərinə başlanılıb. Stansiyanın ümumi gücü 20 meqavat təşkil edir. İşlər yekunlaşdırıldıqdan sonra 22 meqavata çatacaq.

Hazırda ərazidə günəş panellərinin dirəkləri basdırılır, çəpərləmə işləri görülür. Yaxın zamanlarda burada yeni yarımstansiya da quraşdırılacaq. Əlavə olaraq 20 kilovatlıq elektrik verilişi xətləri çəkilərək mövcud 110 kilovatlıq Xal-xal yarımstansiyasına qoşulacaq. İşlərin bu ilin may-iyun aylarında başa çatdırılması nəzərdə tutulub.

2016-cı ildə Günəş Elektrik Stansiyasında 29 milyon 922 min kilovat-saat elektrik enerjisi istehsal olunub. Muxtar respublikada elektrik enerjisinə olan tələbatın 20 faizi bu stansiya vasitəsilə təmin edilib.

Qeyd edək ki, yeni texnologiyalara əsaslanan ekoloji təmiz enerji mənbələrindən istifadəyə müasir dünyada xüsusi diqqət yetirilir. Bu baxımdan ekoloji cəhətdən təhlükəsizliyi ilə seçilən Günəş Elektrik Stansiyasının tikintisi muxtar respublikamızın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm addımdır. Naxçıvan Günəş Elektrik Stansiyası son illərdə muxtar respublikada yaradılmış elektrik stansiyaları arasında böyük əhəmiyyətə malikdir. Bu, müstəqillik illərində Naxçıvanın enerji asılılığından tamamilə azad olunması, onun enerji idxalçısından enerji ixracatçısına çevrilməsi mərhələsində qət etdiyi nəhəng inkişaf yolunun ən parlaq sübutudur.

**Gülcamal TAHİROVA**

## "Ümummilli lider Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda konfrans

***Mayın 2-də Heydər Əliyev Muzeyində "Ümummilli lider Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda konfrans keçirilib.***



Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilən konfrans ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunub.

Konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin sədri Cəbi Quliyev "Ulu öndər Heydər Əliyev və Azərbaycanda dövlət gənclər siyasəti" mövzusunda çıxış edib. Bildirib ki, dövlət gənclər siyasəti dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə sağlam düşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlayıb.

Qeyd olunub ki, bu gün ölkəmizdə dövlət gənclər siyasəti keyfiyyətcə yeni mərhələyə yüksəlib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində gənclərin hərtərəfli inkişafı təmin olunub, onlar cəmiyyətin fəal təbəqəsinə çevrilib.

"Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə gənclər siyasəti" mövzusunda çıxış edən Heydər Əliyev Muzeyinin direktoru, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini Ramil Orucəliyev qeyd edib ki, ulu öndər hələ keçmiş Sovetlər Birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirib, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasına böyük diqqət göstərib. O dövrdə gənclərin təhsili sahəsində həyata keçirilən tədbirlər, onların ixtisaslı kadr kimi yetişdirilməsi ölkəmizin gələcək müstəqilliyinə hesablanmışdı.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin üzvü, "Naxçıvan" Universitetinin tələbəsi Validə İsmayıllı "Ulu öndər Heydər Əliyevin dövlətçilik təlimində gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi" mövzusunda çıxışında deyib ki, ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə gənc nəslin hərbi-vətənpərvərlik hisslərinin formalaşması və inkişafı ön planda olub. Hələ Sovetlər Birliyi dövründə azərbaycanlı gənclərin ittifaqın ali hərbi təhsil müəssisələrinə göndərilməsi və onların müxtəlif hərbi ixtisaslara yiyələnərək sonralar müstəqil Azərbaycanda ordu quruculuğu prosesinə cəlb olunması görkəmli dövlət xadiminin uzaqgörən siyasətinin nəticəsi idi. Ulu öndərin müdrikliyi və uzaqgörənliyi sayəsində bu gün ölkəmizdə qüdrətli milli ordu yaradılıb. Ümummilli liderin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu gün də gənc hərbçi kadrların yetişdirilməsini prioritet məsələ kimi diqqət mərkəzində saxlayır.

"Heydər Əliyev və mənəvi dəyərlərimiz" adlı filmin nümayişindən sonra Yeni Azərbaycan Partiyasına üzv qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim edilib, muzeyin ekspozisiyasına baxış olub.

**Səbuhi HƏSƏNOV**

## Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərində yollar yenidən qurulur



Naxçıvan Muxtar Respublikasında aparılan genişmiqyaslı quruculuq işləri zamanı yol tikintisinə xüsusi diqqət yetirilir. Son illər muxtar respublikada müasir standartlara uyğun avtomobil yolları salınıb, mövcud yol-nəqliyyat kompleksi təkmilləşdirilib, yeni körpülər tikilib. Yol-nəqliyyat infrastrukturunun gücləndirilməsi sahəsində reallaşdırılan layihələrin əsas məqsədi muxtar respublikanın sosial-iqtisadi inkişafını təmin etməkdir. Bu həm də dövlətin vətəndaşlara göstərdiyi qayğının təzahürüdür.

Muxtar respublikada magistral avtomobil yolları ilə yanaşı, kənd yollarının yenidən qurulması da diqqət mərkəzindədir. Hazırda Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhərinə birləşdirən yolda yenidənqurma işlərinə başlanılıb. 10 kilometrə yaxın olan yolun hərəkət hissəsi genişləndirilir, çınqıl örtük verilir.

Yeni çəkilən yolun eni 7 metr olacaq. Möhkəmləndirmə işlərindən sonra yola asfalt örtük veriləcək, suötürücü borular qoyulacaq.

Şıxmahmud və Xəlilli kəndlərinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq üçün də müvafiq tədbirlər görülüb. Əhalinin rahatlığına xidmət edən bu tədbirlərin davamı olaraq cari ildə Uzunoba Su Anbarından çəkilən su kanalı əsaslı təmir olunur.

**Xəbərlər şöbəsi**

# Dağ kəndlərində qurulub-yaradılanlar insan amilinə verilən dəyərin əyani ifadəsidir

***Gümüşlü və Şahbulaq kəndləri Şərur rayonunun təbii gözəllikləri, əsrarəngiz mənzərələri ilə gözoxşayan yaşayış məntəqələrindəndir. Bu kəndlərin ətəyində yerləşdiyi başıqarlı dağların sinəsi yaz-yay aylarında təbii rənglərdən toxunmuş xalıya bənzəyir. Şapur bulağından bir qədər yuxarı ərazidə yerləşən Şahbulaq kəndi dağlarının, dərələrinin, landşaftının özünəməxsusluğu ilə digər yerlərdən fərqlənir.***

Ötən əsrin ortalarında Arpaçayın sol sahilində, Dərələyəz silsiləsinin ətəyində salınan Gümüşlü isə əvvəlcə fəhlə qəsəbəsi kimi tanınıb. Bu yaşayış məntəqəsinin yaranmasının səbəbi həmin ərazilərdə qurğuşun-gümüş yataqları əsasında filizsaflaşdırıcı mədənin yaradılması olub.

Son illər muxtar respublikanın digər kəndləri kimi, Gümüşlü və Şahbulaq kəndləri də, sözün həqiqi mənasında, əsl inkişaf yoluna qədəm qoyub. Şahbulaq kəndinə gedən yol və yolun üstündəki körpülər yenidən qurulub, kənddə ikimərtəbəli məktəb binası və xidmət mərkəzi istifadəyə verilib. Gümüşlüdə isə birində 8, digərində 10 ailə yaşayan 2 bina əsaslı şəkildə təmir olunaraq sakinlərin ixtiyarına verilib, xidmət və kənd mərkəzləri tikilib. Binaların ətrafında abadlıq işləri aparılıb, gülkarlıq və yaşıllıqlar salınıb.

Gümüşlüdə son illərin ərməğanı olan yeni məktəb binası təhsilin inkişafına göstərilən dövlət qayğısı kimi dəyərləndirilir. Məktəbin pedaqoqu, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi İdris Əliyev deyir ki, təhsil ocağı uzun illər yararsız binada fəaliyyət göstərib. Bugünkü ikimərtəbəli, 220 şagird yerlik yaraşıqlı məktəb binası 2005-ci ildə inşa olunub, iki il bundan əvvəl isə əsaslı təmir edilib. Burada geniş və işıqlı sinif otaqları, laboratoriyalar, fənn kabinələri, kompüter sinfi, dərslik və bədii ədəbiyyatla təmin olunmuş zəngin kitabxana, idman zalı var. Müasir istilik sistemi qış mövsümündə dərslərin fasiləsiz tədrisinə şərait yaradır. Məktəbin həyətində 1,5 hektar tədris-təcrübə sahəsi vardır. Burada meyvə ağacları, gül kolları əkib-becəririk. Çalışırıq ki, bizə göstərilən qayğıya cavab olaraq şagirdlərimizə hərtərəfli bilik verək, müstəqil Azərbaycanımıza layiq övladlar yetişdirək.

Yeri gəlmişkən qeyd edək ki, 2008-ci ildə Arpaçay dəryaçası əsaslı təmir olunandan sonra bəndin alt hissəsindəki kol-kos basmış, bataqlığa çevrilmiş ərazi təmizlənib, iməcilik yolu ilə 10 hektar sahədə yeni meyvə bağı salınıb. Gümüşlünün ictimai binalarına və məhəllələrinə Şahbulaq kəndinin dişgöynədən bulaqlarından 7 kilometr uzunluğunda içməli su xətti çəkilib.

Kənddə yeniliklər çoxdur. Bir neçə il əvvəl evlərin bacalarından qalxan qara tüstüyə indi rast gəlməzsən. Təbii qazın verilməsi ilə birlikdə insanların rahatlığı da təmin olunub. Bir vaxtlar palçıqdan, əriyən qardan keçilməz olan küçələrin siması tamamilə dəyişilib. Yollara qara örtük salınıb, kənd tamamilə telefonlaşdırılıb. Əhalinin asudə vaxtının səmərəli təşkilinə çalışan mədəniyyət evi, kitabxana, insanların sağlamlığı keşiyində duran tibb məntəqəsi sakinlərin xidmətindədir. Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər bu yaşayış məntəqəsində hər addımda özünü göstərir və təbii ki, bütün bunlar sakinlər tərəfindən minnətdarlıqla qarşılanır. İnsan amilinə belə qayğı onların ictimai həyatdakı fəallığını artırır, torpağa bağlılıq hisslərini gücləndirir. Ona görə də hər bir kənd sakini yaşadığı



yurd yerinin daha da inkişaf edib gözəlləşməsinə töhfə verməyi özünün vətəndaşlıq borcu sayır.

İnzibati ərazi dairəsi üzrə nümayəndə Rafiq Məmmədov deyir ki, Şahbulaqla birlikdə 1000 nəfərdən artıq əhalisi, 260 təsərrüfatı olan Gümüşlü inzibati ərazi dairəsinin ümumi sahəsi 2 min 87 hektardır. Kənd adamları 54 hektar dövlət, 63 hektar pay torpağında və həyətlərdə əkinçiliyin dağlıq ərazilər üçün xarakterik olan sahələrini inkişaf etdirirlər. Kənddə elə bir ailə tapmaq olmaz ki, təsərrüfatın bu və ya digər sahəsi ilə məşğul olmasın. Hər iki kənd dağlıq zonada yerləşdiyindən aran yaşayış məntəqələrinə nisbətən əkin sahələri azdır. Ona görə də həm Gümüşlü əhalisi, həm də şahbulaqlılar hər qarış torpağın qədrini bilir, əkinçilik, meyvəçilik və heyvandarlıqla məşğul olurlar. Onlar bilirlər ki, torpağa qayğı göstərən əkinçinin zəhməti hədər getməz. Buna görə də zəhmətdən qorxmurlar. Unutmurlar ki, torpağa baş əyməyən, onun qayğısına qalmayan kənd adamının süfrəsi zəngin olmaz.

Gümüşlüdə və Şahbulaqda ötən il xeyli bostan və tərəvəz məhsulları yetişdirilib. Qeyd edək ki, bu kəndlərin iqlim şəraiti və coğrafi mövqeyi meyvəçiliyin inkişafı üçün çox əlverişlidir. Hər bir ailənin özünün müxtəlif meyvə ağacları ilə zəngin bağı vardır. Bağlarda alma, armud, albalı, gavalı, heyva, ərik, şaftalı, gilas, cəviz və digər meyvə ağacları bol məhsul verir. Bu sahədə də böyük təcrübə qazanmış kənd adamları ötən təsərrüfat ilində 150 ton məhsul istehsal edib, ailə büdcəsinə xeyli gəlir gətiriblər. Toplanmış meyvənin satılmasında da heç bir problem yoxdur. Bağların bar-bəhərinin Naxçıvan şəhərində və rayon mərkəzində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına çıxarılması təmin edilir.

Heyvandarlıq dağ kəndlərində inkişaf etdirilən və iqtisadi cəhətdən xeyli sərfəli olan təsərrüfat sahəsidir. Odur ki, Gümüşlüdə və Şahbulaqda heyvandarlığa maraq ildən-ilə artır. Bu kəndlərdə əksər ailənin 3-4 baş iribuynuzlu və azı 10-15 baş xırdabuynuzlu heyvanı var. Arıçılıqla məşğul olanların da sayı ilbəil artır. Hazırda ərazidə yüzlərlə arı ailəsi saxlanılır. Təsərrüfat sahibləri yay fəslində arı ailələrini güllü-çiçəkli "Eyvazxan", "Armudlu", "Məhəmmədəli bulağı", "Qız qalası" yaylaqlarına aparırlar. Bu isə daha keyfiyyətli məhsul istehsalına şərait yaradır.

Gümüşlü və Şahbulaq kəndləri turizmin inkişafı baxımından da böyük perspektivə malikdir. Bu sahə üçün o qədər də güclü reklam və təşkilatçılıq tədbirlərinə ehtiyac duyulmur. Turistlər üçün lazım olan saf iqlim və su ehtiyatı, yaşıllıq, abad kənd şəraiti, insanı cəlb edən təbiət mənzərələri, şəhərdə olduğu kimi, burada da infrastrukturun yüksək səviyyədə olması və qonaqpərvərlik turizm üçün hazır ehtiyatlardır. Təcrübə göstərir ki, bir çox ölkələrdə turizmin inkişafı kənd yaşıl turizmi ilə başlayıb. Burada kənd yaşıl turizmi Gümüşlü və Şahbulaq sakinlərinin təşəbbüskarlığı və qonaqpərvərliyi nəticəsində inkişaf edə bilər. Onu da deyək ki, bu sahənin sosial inkişafın təmin edilməsində üstünlükləri çoxdur. Bunlardan əhalinin maddi rifahının daha da yaxşılaşdırılması, kənd əhalisinin istehsal etdiyi məhsulların satışı, insanlar arasında ünsiyyət və yaxınlaşma, bölgənin adət-ənənəsi, məişətinin öyrənilməsi, təbliği və sairi qeyd etmək olar.

Bu gün Gümüşlü və Şahbulaq sakinləri xoş günlərini yaşayır. Kənd adamlarının əmin-amanlıq yaşayışı, dövlətinə güvənməsi ölkəmizdə, eləcə də muxtar respublikamızda insan amilinə verilən dəyərin əyani ifadəsidir.

**Elman MƏMMƏDOV**
***"Şərurun səsi" qəzetinin redaktoru***

# Muxtar respublikada arıçılığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir

***İqtisadi baxımdan çox sərfəli sayılan arıçılıq gəlirli, qida və müalicəvi əhəmiyyəti baxımından çox faydalı təsərrüfat sahəsidir. Kənd təsərrüfatının başqa istiqamətləri ilə müqayisədə, bu sahəyə daha az xərc çəkməklə qısa müddət ərzində məhsul əldə etmək mümkündür.***



Muxtar respublikada arıçılıq təsərrüfatlarının inkişafı, arıçılıq məhsullarının istehsalının artımı və ixrac potensialının gücləndirilməsi istiqamətində ardıcıl işlər görülür. Arıçılığın inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilib. Proqramda qarşıya qoyulmuş tapşırıqların icrası istiqamətində bir sıra tədbirlər həyata keçirilib.

Muxtar respublikada bu sahə ilə məşğul olan sahibkarlara verilən güzəştli kreditlər arıçılıq məhsullarının ixracına əlverişli şərait yaradır. Son illər ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən arıçılıqla məşğul olan 102 sahibkarlıq subyektinə 727 min manat həcmində kreditlər verilib, balın emalı və qablaşdırılması ilə məşğul olan 5 istehsal müəssisəsi yaradılıb.

Ötən müddət ərzində muxtar respublikada dövlət maliyyə dəstəyi ilə "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti, Ordubad rayonunun Üstüpü kəndində Fikrət Abdullayev və Babək rayonunun Zeynəddin kəndində Ceyhun Həsənov tərəfindən balın emalı və qablaşdırılması sahələri yaradılıb. Bu ilin birinci rübündə Culfa rayonunun Qızılca kəndində dövlət maliyyə dəstəyi ilə İlqar Hüseynov tərəfindən mövcud 15 arı ailəsindən ibarət təsərrüfatın genişləndirilərək 80 arı ailəsinə çatdırılması və Şahbuz rayonunun Sələsüz kəndində özəl investisiya qoyuluşu hesabına Etibar Məmmədov tərəfindən gücü saatda 40 kiloqram olan mum vərəqi istehsalı sahəsinin yaradılması davam etdirilir.

Arıçılıq məhsulu olan çiçək tozunun tədarükü və qablaşdırılması, ana arı yetişdirmə təsərrüfatının və arı ailələri üçün qış yemlənməsində istifadə olunan vitaminli qida istehsalı sahələrinin yaradılması istiqamətində layihələr hazırlanıb, iqtisadi səmərəliliyi araşdırılıb və iri arıçılıq təsərrüfatları ilə layihələrin təqdimatı keçirilib. Bundan başqa, arıçılıq təsərrüfatlarında istifadə olunan arıçılıq ləvazimatlarının, arı yeşiyi, çərçivə, körük, arıçı geyim forması və ələk istehsalı sahələrinin yaradılması istiqamətində sahibkarlar arasında maarifləndirmə tədbirləri aparılıb, dövlət maliyyə dəstəyi çərçivəsində yeni layihələr təklif edilib.

Arıçılığın daha da inkişaf etdirilməsi, bu sahə ilə məşğul olan sahibkarların işinin əlaqələndirilməsi üçün yaradılmış "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin maddi-texniki bazasının gücləndirilməsi sahəsində pilot layihənin tətbiqi və qrant vəsaitlərinin cəlb edilməsi məqsədilə iqtisadi-texniki əsaslandırmanın hazırlanması istiqamətində tədbirlər davam etdirilir.

Bu gün muxtar respublikada arıçıların əsas problemlərindən biri də məhsulların qablaşdırılması ilə bağlıdır. Arıçılıq məhsullarının ixracı və ərzaq təhlükəsizliyi nöqteyi-nəzərindən qablaşdırma çox önəmli rola malikdir. Arıçılıq təsərrüfatlarının fəaliyyətinin stimullaşdırılması məqsədilə "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 175 təsərrüfatdan 4.431 kiloqram bal məhsulu tədarük edilib.

Bu ilin mart ayında İran İslam Respublikasının Urmiya şəhərində keçirilmiş sərgidə "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən qablaşdırılmış bal məhsullarının sərgisi, tanıdılması və satışı həyata keçirilib, həmçinin belə məhsulların Bakı şəhərində satışının təşkil olunması istiqamətində tədbirlər davam etdirilir.

Muxtar respublikada istehsal edilən arıçılıq məhsullarının keyfiyyəti daim diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə cari ilin ötən dövrü ərzində "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən muxtar respublikada istehsal olunan bal məhsullarının 22 halda səyyari və 2 halda laboratoriya təhlilləri aparılıb, nümunələrin keyfiyyət göstəricilərinin qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə uyğun olduğu müəyyən edilib.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" yerli və ənənəvi arı cinslərinin yetişdirilməsinə, arı ailələrindən yüksək məhsul götürülməsinə, xəstəliklərə qarşı vaxtında mübarizə aparılmasına, arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə, arıçılıq məhsullarının ixracına şərait yaradır. Proqramın icrası nəticəsində bu sahədə daha böyük uğurlar qazanılacaq, yerli və ənənəvi arı cinsləri yetişdiriləcək, məhsul istehsalı artırılacaqdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Kənd təsərrüfatında artım təmin edilib

***Əhalinin davamlı olaraq keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına yönəlmiş dövlət siyasəti muxtar respublikamızda kənd təsərrüfatının inkişafına təkan verən mühüm amillərdəndir.***

***Muxtar respublikamızda iqtisadiyyatın şaxələndirilməsi və kənd təsərrüfatını inkişaf etdirmək məqsədilə qəbul edilmiş mühüm dövlət proqramlarının uğurlu icrası da məhz bu istiqamətdə görülmüş işlərin əsas məzmununu təşkil edir.***

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumatda qeyd olunur ki, cari ilin yanvar-mart aylarında muxtar respublikada 26 milyon 400 min 400 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da bir il öncəyə nisbətən 3,3 faiz çoxdur.

Aqrar sektorda heyvandarlıq məhsulları istehsalı, onların emalı, saxlanması və satışı davamlı olaraq diqqət tələb edən məsələlərdəndir. Muxtar respublikada daxili bazarın qorunması bu sahənin inkişafına da şərait yaradır. Belə ki, 2017-ci ilin yanvar-mart aylarında muxtar respublikada diri çəkidə 5880,7 ton ət, 12248,7 ton süd istehsal olunub ki, bu da 2016-cı ilin yanvar-mart ayları ilə müqayisədə müvafiq olaraq 3,5 və 1,6 faiz çoxdur. Cari ilin ilk rübü ərzində muxtar respublikada 4 heyvandarlıq təsərrüfatının yaradılması davam etdirilir. Bu sahənin inkişaf etdirilməsi məqsədilə bank və kredit təşkilatları tərəfindən 455 min 300 manat həcmində kredit verilib. Bu dövr ərzində kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 719 min 100 manat məbləğində kreditlərin verilməsi təmin olunub.

Naxçıvanda bitkiçilik, bağçılıq və bostançılıq məhsulları istehsalının artırılması üçün müvafiq tədbirlərin aparılması davam etdirilir. Belə ki, muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsi məqsədilə üzüm bağlarının salınması üçün tinglərin becərilməsinə başlanılıb. Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatını daha da yaxşılaşdırmaq məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2017-ci ilin yanvar-mart aylarında 131 ədəd kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilib. Bu dövr ərzində məhsul istehsalçıları 5293,3 ton mineral gübrə ilə təmin olunub.

Muxtar respublikada etibarlı ərzaq təminatı sisteminin yaradılması ixrac potensialını da artırıb. Belə ki, 2017-ci ilin ilk rübü ərzində muxtar respublikadan 12 milyon 50 min 400 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunub.

Göründüyü kimi, muxtar respublika iqtisadiyyatı yeni iqtisadi şəraitə çevik uyğunlaşma göstərib və mühüm yer tutan kənd təsərrüfatında da dinamik artıma nail olunub.

**✍ Əli CABBAROV**

# “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası”nın müzakirəsi ilə bağlı tədbir keçirilib

***Dünən “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası”nın müzakirə edilməsi məqsədilə Naxçıvan Şəhər İcra Hakimiyyətində tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 17 mart tarixli Sərəncamına əsasən “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası” nəşr olunub, aprelin 26-da atlasın təqdimatı keçirilib. Sərəncamda qeyd olunur ki, atlasın nəşri təbii resurslardan səmərəli istifadə, əhalinin, yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı müəssisələrinin, infrastruktur obyektlərinin, o cümlədən qaz kəmərlərinin, kommunikasiya xətlərinin fövqəladə hallardan qorunması, istehsal qüvvələrinin inkişafı məsələlərinin əsaslandırılmış şəkildə həll edilməsi məqsədi daşıyır. Ali Məclis Sədrinin sərəncamına əsasən hazırlanan “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası” bu sahədə vahid elmi yanaşmanın təmin olunmasına xidmət edən ilk dəyərli nəşrdir.

İcra Hakimiyyətinin başçısı qeyd edib ki, 6 bölmədən ibarət olan atlasda fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin praktik olaraq planlaşdırılması və həyata keçirilməsi müəyyən edilib. Eyni zamanda atlasda muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı göstəricilər, infrastruktur obyektləri barədə məlumatlar, müxtəlif miqyaslı inzibati və coğrafi xəritələr verilib. Yeni nəşr dəyərli məlumatlara malik olması baxımından Naxçıvan şəhəri üçün də müstəsna əhəmiyyət kəsb edir.

Sonra Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri, “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası” redaksiya heyətinin sədr müavini Şamı Abdullayevin, redaksiya heyəti üzvlərindən Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubovun, muxtar respublika Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilovun çıxışları olub. Çıxış edənlər atlasın nəşrinə göstərdiyi qayğıya görə muxtar respublika Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Çıxışlarda tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, muxtar respublikada, eləcə də Naxçıvan şəhərində mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və onun strukturuna daxil olan qurumlar üçün müasir iş və xidmət şəraiti yaradılıb, yeni yanğınsöndürmə avtomobilləri və müxtəlif təyinatlı texniki avadanlıqlar alınıb, nazirliyin mərkəzi aparatı və struktur qurumlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi və peşəkarlığının artırılması sahəsində də tədbirlər görülüb. Bu atlas muxtar respublikada, eləcə də Naxçıvan şəhərində fövqəladə halların qarşısının alınmasına və mülki müdafiə işinin təşkilinə öz töhfəsini verəcəkdir. Atlasda fövqəladə halların başvermə təhlükəsi və onların qarşısının alınması üzrə tədbirlər sistemli şəkildə təqdim olunub.



Vurğulanıb ki, kitabda muxtar respublikanın iqtisadi-coğrafi şəraiti və inzibati ərazi bölgüsü, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması işinin təşkili haqda dəyərli məlumatlar vardır. Bundan başqa, atlasda təbii fövqəladə hal mənbələrinin mövcudluğu, yayılma arealı və təhlükəsi, əvvəlki illərdə muxtar respublikada baş vermiş bu tip təbii fəlakətlər, onların vurduğu ziyan haqqında statistik məlumatlar yer alır. Həmçinin bu atlasda aqroiqlim təhlükələri və riskləri araşdırılır, muxtar respublika iqtisadiyyatının əsas hissəsini təşkil edən kənd təsərrüfatına mənfi təsir göstərə biləcək əlverişsiz iqlim amilləri şərh olunur, şəhər və rayonlarda aqroiqlim ehtiyatlarının paylanması xüsusiyyətləri, həmçinin əkin sahələrinin əlverişsiz aqroiqlim hadisələrinə məruzqalma səviyyəsi təhlil edilir, zəruri tövsiyələr verilir. Əlavə olaraq fövqəladə hallar atlasında texnogen fövqəladə hal təhlükəsinin yaranması xüsusiyyətlərindən, texnogen fövqəladə halların təhlükə riskinin daha çox olduğu ərazilərdən, qəzaların qarşısının alınması üçün müəyyənləşdirilmiş profilaktik tədbirlərdən bəhs edilir.

Diqqətə çatdırılıb ki, atlasın sonuncu bölməsində təhlükəli xəstəliklərin hər biri haqqında ayrıca məlumatların verilməsi ilə yanaşı, həm də onların yayılma riskləri və profilaktikası sahəsində görüləcək tədbirlər ətraflı izahını tapıb. Qeyd olunan xüsusiyyətlər atlası fövqəladə hallar üzrə ensiklopedik məlumatları özündə əks etdirən nəşr, eləcə də normativ-metodiki vəsait kimi dəyərləndirməyə əsas verir. Şübhə yoxdur ki, müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları, eləcə də Naxçıvan Şəhər İcra Hakimiyyəti fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin planlaşdırılmasında bu nəşrdən faydalanacaqlar. Fövqəladə hallar atlası belə halların qarşısının alınması, bu zaman fəaliyyət üzrə idarəetmə orqanlarının və qüvvələrinin fəaliyyətinin planlaşdırılması, təşkili baxımından müstəsna əhəmiyyət kəsb edir. “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası” fövqəladə halların ekoloji nəticələrini aradan qaldırmaq üzrə işlərə metodiki rəhbərlik etmək, eləcə də bir çox digər tədbirlərin operativ yerinə yetirilməsində istiqamətverici metodik vəsait kimi respublika ekoloqlarının yol xəritəsi və etibarlı mənbə rolunu oynayacaqdır.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini, Naxçıvan şəhər fövqəladə hallar komissiyasının sədri Sərdar Salahov Naxçıvan şəhərində həyata keçirilən mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması istiqamətində görülən işlərdən danışaraq qeyd edib ki, komissiya bundan sonra “Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası”ndan metodik vəsait kimi istifadə edəcəkdir.

Tədbirə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov yekun vurub.

**Səbuhi HÜSEYNOV**

---

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında” 2017-ci il 12 yanvar tarixli Sərəncamında deyilir:* ***“Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir. Azərbaycan tarixinə həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir”.***



*Molla Pənah Vaqif - 300*

# Molla Pənah Vaqif milli ənənələri ilə seçilən ədəbi məktəb yaradıb

*Kamalın gözəldə xəti kəm gərək,*
*Sevgi gərək, söhbət gərək, dəm gərək.*
*Aşiqə vəfalı bir həmdəm gərək,*
*Həmdəmsiz bal yesə, ona acıdır.*

*Aşinalıq hər gülən gül üzdə sanmaqdır əbəs,*
*Hər nigari-gərm üçün odlara yanmaqdır əbəs,*
*Halını bilmədiyin yara inanmaqdır əbəs,*
*Vaqifa, əvvəl sevib, sonra usanmaqdır əbəs,*
*Sevgili yarı sevən kəs, hər zaman sevmək gərək!*

Molla Pənah Vaqif Şərq şeirinin bütün vəznlərini yaxşı bilən, doğma dilində, xalqının ruhunu və zövqünü oxşaya biləcək səpkidə yazıb-yaratmağı üstün tutan bir şair olub. Onun xalq dilindən gələn təbii, səmimi ifadələri oxucunu məftun edir. Firidun bəy Köçərli Vaqifin xalq ədəbiyyatı ruhunda yazdığı əsərlərinin “...həqiqi həyatdan nəşət etdiyini” söyləyir, Vaqifi həyatı doğru təsvir edən bir realist kimi müasirlərinə nümunə göstərirdi: “Yüz sənə bundan irəli ata-babalarımızın dolanacağını, ədəb və əxlaqını, libas və təamlarını, arzu və təmənnalarını, fikir və xəyalatını və bilcümlə o əsrin övza (vəziyyət) və dəstgahını Vaqif... gözəl əşar (şeir) və kəlami-abidar (xoşagələn) ilə yazıb gələcək nəsil üçün unudulmayan bir əlamət və yadigar qoymuşdur”. Vaqifin sadə, anlaşıqlı dilindən Səməd Vurğun da “Öz xalqının böyük oğlu” adlı məqaləsində bəhs edərək yazır ki, “Vaqifdəki gözəl, dərin lirizm, sadəlik və xəlqilik, həm də şairlərimiz üçün ən böyük poetik məktəbdir”.

Molla Pənah Vaqif Azərbaycan pedaqoji fikir tarixində məhəbbət, gözəllik lirikasının yaradıcısı və misilsiz ustadı kimi şöhrət qazanmışdır. Onun yaradıcılığı bütün bədii keyfiyyətləri və xüsusiyyətləri ilə dərin ictimai mənaya malikdir, vətəndaşlıq duyğuları ilə cilalanmışdır. Yenə də Səməd Vurğunun təbiri ilə desək, Vaqif yaradıcılığı ictimai təfəkkürümüzün və poeziyamızın inkişafı tarixində tamamilə yeni bir mərhələ olmuşdur.

Məlum bir həqiqətdir ki, Molla Pənah Vaqif öz dövrünün görkəmli şairi – lirik sənətkarı olmaqla yanaşı, həm də təcrübəli siyasi xadim, elmə, təhsilə xüsusi əhəmiyyət verən maarifçi idi. Şair elmin, təhsilin əhəmiyyətini özünün əməli işində və ictimai-siyasi fəaliyyətində dönmədən nümayiş etdirmiş, gəncləri oxumağa, elmin dərinliklərinə baş vurmağa həvəsləndirmişdir. Doğrudur, müəllifin şeirlərində bilavasitə məktəbə, təhsilə və elmə çağıran motivlər hiss edilməyəcək dərəcədə zəifdir; bununla belə, şairin keşməkeşli, ziddiyyətli, böhranlarla dolu həyat yolunda və əməli yaradıcılıq fəaliyyətində əxlaqi-tərbiyəvi işlərə böyük diqqət yetirməsi, yeri düşdükcə şeirlərində tərbiyəvi-didaktik mülahizələrə geniş yer verməsi Vaqifi fəal bir maarif xadimi, pedaqoq kimi də tanıtmışdır.

Çox maraqlıdır ki, tərbiyə, əxlaq, etika və sair pedaqoji prinsiplərlə əlaqədar fikirlər, şairin estetik baxışlarında gözəllik anlayışını tamamlayan, bu anlayışın məzmununa yeni cizgilər gətirən mühüm müddəalar kimi daxil olmuşdur.

Etika və ədəb qaydalarından danışarkən şair çox incə mətləblərə toxunub. O, təlim-tərbiyə, əxlaqi saflıq və xarakterin möhkəmliyi kimi etik məsələləri izah edərkən bir mühüm, düşündürücü həqiqəti də geniş şərh edib. Bu da sevgidə sədaqət, azad məhəbbət ideyası yolunda hər növ cəfaya dözmək, ilqar saflığı və əhdə dönük olmamaq kimi yüksək əxlaqi-estetik prinsiplərin ardıcıllıqla müdafiəsindən ibarət idi. Şair belə bir işıqlı, təmiz qayəni təlim edirdi: sevgi, eşq, gözəllik o zaman birləşə bilər ki, sevgililər arasında düz ilqar, təmiz, aydın və nurlu bir əlaqə yaransın. Gözəllik azad və ülvi bir məhəbbətə layiq keyfiyyətdir, elə bir keyfiyyətdir ki, yalnız mənəvi-əxlaqi saflığı etibarilə yüksək olanlar bu keyfiyyəti yaşada bilər:

*Yasəmən tellərin, nərgiz gözlərin*
*Mənimlə, gözəlim çoxdan yağıdır.*
*İnsaf et, öldürmə, günahsız qulu*
*Əl-əldən üzülür, yaman çağıdır.*

Molla Pənah Vaqif mənsub olduğu xalqın, doğma yurdunun gənclərini, ayıq, huşyar cavanlarını elmə-maarifə yiyələnmiş, açıqgözlü, mədəni bir nəsil kimi görmək istəyirdi. Onun poeziya yaradıcılığında estetik gözəlliyin əsasında şairin tərbiyəvi-əxlaqi qayəsinin, etikaya dair müddəalarının geniş şərhi dayanmışdır. Şair cismən və ruhən gözəl, azad və təmiz gəncliyi ağıllı, nəcib, həyat mübarizəsinə hazır, sevgidə, dostluqda möhkəm, yüksək əqidəli insanlar kimi görmək, tanımaq və tərənnüm etmək idealları ilə yaşayırdı.

Qeyd etdiyimiz kimi, Vaqif poeziyasında həyata bağlılıq və nikbinlik ideyası artıq tamamilə vətəndaşlıq hüququ qazanır və dərin ictimai, əxlaqi məzmun kəsb edir. Bu nikbinliyin və həyat eşqinin arxasında duran müsbət ideal dinin, tərki-dünyalıq meyillərinin çox qüvvətli olduğu XVIII əsrin şəraitində böyük mütərəqqi əhəmiyyətə malik idi. Dünyəvi hisslərin coşqun təbliğatçısı olan Molla Pənah Vaqifin lirik qəhrəmanı şəxsiyyət etibarilə də bir çox cəhətdən nəzər-diqqəti cəlb edir:

Vaqif öz yaradıcılığı ilə ədəbi-pedaqoji fikrin inkişafında yeni bir dövr açmış, öz sələflərindən öyrənmiş olsa da, onların görə bilmədiyi son dərəcə mühüm bir işi görmüşdür. O da bundan ibarətdir ki, Vaqif ədəbiyyatı milli həyata, milli məişətə, milli xarakterə doğru yönəltmiş, realist bədii təfəkkürə getdikcə genişlənən və dərinləşən daimi bir cığır açmışdır. Onun şeirlərinin mövzusu da, forması da, üslubu da yuxarıda qeyd etdiyimiz kimi, xalqın həyatından, məişətindən, milli keyfiyyətlərindən doğmuşdur. Vaqif tam mənası ilə milli bir şairdir. Vaqifə qədər heç bir Azərbaycan şairinin əsərlərində milli həyatımız bu qədər dolğun, səmimi və təbii bir şəkildə təsvir edilməmişdir.

Bu il ölkəmizdə görkəmli Azərbaycan şairinin 300 illik yubileyi geniş qeyd olunur. Ali Baş Komandana, qüdrətli Milli Ordumuza güvənərək deyirik ki, Vaqifin növbəti yubileylərini doğma elində, Azərbaycanın dilbər guşəsi sayılan Qarabağda qeyd edəcəyimiz gün uzaqda deyil.

**Kamal CAMALOV**
***pedaqogika üzrə fəlsəfə doktoru, dosent***

---

# 1105 nəfərə birdəfəlik maddi yardım ödənilmişdir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il aprelin 24-də “1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında” Sərəncam imzalamışdır.***

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən 2017-ci ilin may ayının əvvəlində birdəfəlik maddi yardım şamil olunduğu şəxslərə çatdırılmış, sərəncama uyğun olaraq ayrılan məbləğlər həmin şəxslərin plastik bankomat kartlarına köçürülmüşdür.

Sərəncama əsasən, muxtar respublika üzrə 1105 nəfərə birdəfəlik maddi yardım ödənilmişdir. 31 nəfər 1941-1945-ci illərdə İkinci Dünya müharibəsi iştirakçısının hər birinə 1000 (min) manat, 1074 nəfər İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarının hər birinə 500 (beş yüz) manat məbləğində birdəfəlik müavinət ödənilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Boks üzrə muxtar respublika turnirinin qalibləri mükafatlandırılıb



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində boks üzrə keçirilən "Heydər Əliyev kuboku" uğrunda muxtar respublika turnirinə yekun vurulub. Turnirdə 14-15 yaşlı yeniyetmələr, 18-19 yaşlı gənclər və böyüklər 10 çəki dərəcəsində ən gücünü müəyyən etməyə çalışıblar.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdiyi yarış üç gün davam edib. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun olaraq keçirilən yarışda muxtar respublikanın şəhər və rayonlarından 100-ə yaxın dəri əlcək sahibi mübarizə aparıb.

Dünən turnirin bağlanış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra final görüşlərinə start verilib. Yekunda 40 kiloqram çəki dərəcəsində Naxçıvan təmsilçisi Hüseyn Hüseynov Sədərək boksçusu Elşən Əliyevi, 45 kiloqram çəki dərəcəsində Ülvü Süleymanov (Naxçıvan) Nizami Novruzovu (Naxçıvan), 50 kiloqram çəki dərəcəsində Kənan Şəfiyev (Şərur) Sənan Əliyevi (Naxçıvan), 56 kiloqram çəki dərəcəsində Ayxan Süleymanov (Naxçıvan) Kənan İbrahimovu (Ordubad) məğlub edərək turnirin əsas mükafatını qazanıblar.

Azarkeşlər nisbətən yüksək çəki dərəcələrindəki idmançıların görüşlərinə daha çox maraq göstəriblər. Gərgin idman mübarizəsi şəraitində keçən döyüşlərdə Kamran Allahverdiyev (60 kiloqram, Naxçıvan) Uğur Həmzəyevdən (Sədərək), İbrahim Cəfərzadə (Naxçıvan) Fəxri Qazıbəyovdan (64 kiloqram, Culfa), Ülvü İbrahimov (69 kiloqram, Ordubad) Nihad Hacıyevdən (Babək), Yuris Allahverdiyev (75 kiloqram, Naxçıvan) Rasim Rzayevdən (Şərur), Zəfər Ağamalıyev (81 kiloqram, Naxçıvan) Nural Zamanovdan (Culfa) və Orxan Əliyev (91 kiloqram, Naxçıvan) Fərid İbrahimlidən (Naxçıvan) üstün olaraq muxtar respublika turnirinin qalibi olublar.



Sonda qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıblar. Mükafatları Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədri Məhərrəm Talıbov, Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarov, təhsil naziri Məmməd Qəribov, Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev, Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov və Basketbol Federasiyasının sədri Mahir Əliyev təqdim edib.

## Kikboksinq üzrə peşəkarlararası reytinq və kəmər döyüşləri uğrunda turnirə yekun vurulub

***Şərur Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş kikboksinq üzrə peşəkarlararası reytinq və kəmər döyüşləri uğrunda turnirə yekun vurulub.***

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Kikboksinq və muxtar respublika Şərq Döyüşü Sənəti federasiyalarının təşkilatçılığı ilə keçirilən turnirin iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsinin önünə gül dəstələri qoyublar. Sonra qonaqlar Heydər Əliyev Muzeyinə gələrək buradakı eksponatlarla tanış olublar.

Turnirin açılış mərasimində çıxış edən muxtar respublika gənclər və idman naziri Azad Cabbarov bildirib ki, ölkəmizdə idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Aparılan məqsədyönlü idman siyasəti idmançılarımızın beynəlxalq arenalarda, dünya və Avropa çempionatlarında uğurlu çıxışlarına zəmin yaradıb. Azərbaycan artıq dünyada bir idman ölkəsi kimi tanınır. Bunun nəticəsidir ki, hər il ölkəmizdə, eləcə də muxtar respublikamızda beynəlxalq səviyyəli idman tədbirləri təşkil edilir.

"Ölkəmizdə həyata keçirilən uğurlu idman siyasətinin tərkib hissəsi kimi bu gün Naxçıvan Muxtar Respublikasında gənc idmançılar nəsli yetişib, idman ustaları formalaşıb. Naxçıvanlı idmançılar ölkə və dünya əhəmiyyətli yarışlarda təmsil olunur və uğurlara imza atırlar", – deyən Azad Cabbarov qeyd edib ki, bütün idman növləri kimi, kikboksinq idman növü üzrə də muxtar respublika idmançıları ölkə, dünya və Avropa çempionatlarında bir sıra nailiyyətlər əldə ediblər. Bu gün Naxçıvan beynəlxalq idman yarışlarına ev sahibliyi edir. Bütün bunlar idmançıların təcrübə qazanması və peşəkar idmançı kimi formalaşması baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Kikboksinq Federasiyasının prezidenti, Milli Məclisin deputatı Adil Əliyev çıxışında qeyd edib ki, ölkəmiz müxtəlif idman



növləri üzrə respublika, qitə və beynəlxalq səviyyəli yarışların keçirildiyi məkana çevrilib. Bu, Azərbaycanın idman ölkəsi kimi tanınmasından və dünya ölkələri arasında böyük nüfuz qazanmasından xəbər verir. Sürətlə inkişaf edən, gündən-günə daha da gözəlləşən Naxçıvan Muxtar Respublikasında da idman sahəsinə xüsusi qayğı və diqqət göstərilir. Muxtar respublikada mövcud olan ən müasir idman infrastrukturu burada nüfuzlu idman tədbirlərinin keçirilməsinə şərait yaradır. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş peşəkarlararası kikboksinq üzrə reytinq və kəmər döyüşlərinin Şərur Olimpiya-İdman Kompleksində keçirilməsi də muxtar respublikanın idman məkanı kimi böyük şöhrət qazanması ilə əlaqədardır.

Adil Əliyev bildirib ki, Naxçıvan bu gün həm də idmanın inkişafı baxımından Azərbaycanın digər bölgələrinə nümunədir.

Açılış mərasiminin bədii hissəsində Şərur Rayon Mədəniyyət və Turizm Şöbəsinin mahnı və rəqs ansamblının bir-birindən rəngarəng çıxışları olub.

Sonra kikboksinq üzrə peşəkarlararası reytinq və kəmər döyüşlərinə start verilib. Rinqə çıxan 14 idmançı 7 çəki dərəcəsində WAKO versiyası üzrə mübarizə aparıb. Reytinq görüşlərində Turan Qafarov (63,5 kiloqram, "Quba" idman klubu), Ruslan Musayev (67 kiloqram, Azərbaycan Daxili İşlər Nazirliyi İdman Cəmiyyəti), Rəhim Əliyev (71 kiloqram, "Qızıl Əlcək" klubu), Orxan Məlikov (86 kiloqram, "Naxçıvan" idman klubu) və Asəf Aslanov (91 kiloqram, "Quba" idman klubu) qalib gəliblər. Kəmər döyüşlərində isə Zöhrab Əzimov (60 kiloqram) və Emil Mövsümzadə (76 kiloqram, hər ikisi Azərbaycan Daxili İşlər Nazirliyi İdman Cəmiyyəti) rinqdə güclü olduqlarını nümayiş etdiriblər.

Sonda qaliblərə təşkilatçılar tərəfindən kubok və kəmərlər təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan beynəlxalq şahmat mərkəzinə çevrilib



***Ən qədim oyun növlərindən biri olan şahmat uşaq və yeniyetmələrin əqli inkişafına təsir edən mühüm vasitələrdən biridir. Uşaqların dünyagörüşünün formalaşmasına müsbət təsir edən bu idman növü onlarda diqqətli olmaq, düşünmək, müqayisə etmək qabiliyyətlərini gücləndirir. Şahmat həmçinin ixtiraçılıq qabiliyyətini və qanunauyğunluq təfəkkürünü də inkişaf etdirir. Uşaqlara özünə tənqidlə yanaşmağı, sərbəst qərar vermək bacarığını aşılayır. Bir sözlə, şahmat həm yaxşı zaman keçirmək, həm də zehni inkişaf etdirmək üçün mühüm vasitədir.***

İdmanın, o cümlədən şahmatın kütləviliyinə, onun inkişaf və təbliğinə nail olmaq, bu sahədə yeni idmançılar hazırlamaq muxtar respublikada aparılan idman siyasətinin tərkib hissəsidir. Son illər bu məqsədə xidmət edən ardıcıl tədbirlər görülür. Bu il yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" barədə keçirilən növbəti müşavirə də muxtar respublikada idmana, o cümlədən şahmatın inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir. Müşavirədə uşaq-gənclər şahmat və idman məktəblərinin fəaliyyətlərinin gücləndirilməsi, rayon şahmat məktəbləri arasında interaktiv dərslərin qrafik əsasında keçilməsinin təmin edilməsi barədə konkret tapşırıqlar verilib.

Ümumiyyətlə, son illər şahmatın kütləviliyinə nail olunması məqsədilə mühüm addımlar atılıb, nəinki şahmat məktəblərində, eləcə də orta ümumtəhsil məktəblərində bu idman növünün tədrisi üçün hər cür şərait yaradılıb, təhsil ocaqları müasir elektron tədris vəsaitləri ilə təmin olunub. Yeri gəlmişkən qeyd edək ki, hazırda muxtar respublikada Şahmat Mərkəzi, bütün rayon mərkəzlərini əhatə etməklə 7 Uşaq-gənclər şahmat məktəbi fəaliyyət göstərir. Həmçinin ümumtəhsil məktəblərimizdə dərs cədvəlinə daxil edilməklə hər sinif üçün həftədə 2 saat şahmat tədris edilir. Bunun üçün məktəblərin müvafiq kadr heyəti formalaşdırılıb, şahmat sinifləri və şahmat otaqları istifadəyə verilib, onlar müasir əyani vasitələrlə təchiz olunublar. Şahmat otaqlarında tədrislə yanaşı, bu sahədə olan bacarıqlarını təkmilləşdirmək üçün şagirdlərin asudə vaxtlarında yarışların keçirilməsi də diqqət mərkəzində saxlanılır. Şahmat siniflərində elektron lövhələrin imkanlarından səmərəli istifadə olunur. Bu avadanlıq vasitəsilə şahmatın tədrisi üçün tətbiq olunan proqramlardan istifadə edilir, təcrübəli şahmatçıların oyunlarından nümunələr göstərilir. Məktəblərdə yaradılan şərait, təbii ki, şagirdlərdə bu idman növünün sirlərinə yiyələnməyə maraq oyadır. Görülən bütün bu işlərin əsas məqsədi gələcəyimiz olan uşaqların zehni inkişafında və intellektual səviyyəsinin yüksəlməsində əhəmiyyətli rol oynayan şahmatın kütləviliyinin təmin olunmasıdır.

Həyata keçirilən tədbirlər muxtar respublikada istedadlı şahmatçılar nəslinin yetişməsinə, eyni zamanda Naxçıvanın idmanın bu növü üzrə beynəlxalq yarışlara ev sahibliyi etməsinə şərait yaradıb. Buna muxtar respublikada hər il may ayında ənənəvi olaraq keçirilən, ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş beynəlxalq şahmat festivallarını misal göstərmək olar. Dünyanın müxtəlif ölkələrindən şahmatçıların Naxçıvanda keçirilən bu festivallarda iştirak etməsi bir daha sübut edir ki, bu mötəbər yarışlara maraq ilbəil daha da artır.

Həmin festivallar dünyanın müxtəlif ölkələrindən gəlmiş şahmatçılar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə, yerli şahmatçıların yarış təcrübəsi əldə etməsinə şərait yaradır. Ötən il ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Naxçıvan – 2016" Beynəlxalq Şahmat Festivalında 3 yarımqrupda keçirilən beynəlxalq turnirdə 350-dən çox şahmatçı iştirak edib. Onlar arasında dünya və Avropa çempionu olmuş şahmatçılar, beynəlxalq qrossmeysterlər, beynəlxalq usta və FİDE ustaları da olub. Bu gündən start götürən ulu öndərin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Naxçıvan – 2017" Beynəlxalq Şahmat Festivalında da müxtəlif xarici ölkələrdən yüzlərlə şahmatçı iştirak edəcəkdir. Sevindirici haldır ki, bu turnirdə muxtar respublikadan olan çox sayda şahmatçı qatılacaq.

Qazanılan qələbələr, əldə olunan uğurlar, nüfuzlu beynəlxalq şahmat festivallarının keçirilməsi muxtar respublikada bu idman növünün yüksək inkişafından xəbər verir. Şahmatçılarımızın uğurları layiqli qiymətini alır.

Hazırda muxtar respublikamızda 3 mindən çox məktəbli şahmatla məşğul olur. İnanırıq ki, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikasında şahmat daha kütləvi xarakter alacaq, bu diyarda beynəlxalq qrossmeyster, usta və hakimlərin, FİDE ustalarının sayı hər il daha da artacaqdır.

**Röyal MƏMİYEV**
***Naxçıvan Televiziyasının baş redaktoru***

**İtmişdir**

Naxçıvan Şəhər Uşaq Təşkilatına 24 aprel 1997-ci ildə verilmiş 087 nömrəli şəhadətnamə və nizamnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 359